AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

# 6116.01 - “KLİNİK (TİBBİ) PSİXOLOGİYA”
## ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında doktoranturaya qəbul imtahanı üçün

## PROQRAM

BAKI-2026

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# 6116.01 - "KLİNİK (TİBBİ) PSİXOLOGİYA"
# ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında doktoranturaya qəbul imtahanı üçün

# PROQRAM

Proqram Sosial Elmlər və Psixologiya fakültə
Elmi Şurasında 19 mart 2026-cı il tarixində təsdiq edilmişdir.
(protokol №7)

**BAKI-2026**

**Tərtib edənlər:** BDU-nun Psixologiya kafedrasının
professoru, psixologiya elmləri doktoru
Elnarə Şəfiyeva

**Elmi redaktor:** BDU-nun psixologiya kafedrasının müdiri,
professor, psixologiya elmləri doktoru
Səxavət Əliyeva

## MƏZMUNU

Ümumi qaydalar
Bölmə I. Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri
Bölmə II. Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar
Bölmə III. Fəlsəfə doktoru imtahanı proqramının məzmunu
Fəsil 1 . KLİNİK (TİBBİ) PSİXOLOGİYANIN YARANMA TARİXİ, MÖVZUSU VƏ VƏZİFƏLƏRİ
Fəsil 2. KLİNİK PSİXOLOGİYANIN NƏZƏRİ VƏ ETİK PROBLEMLƏRİ
Fəsil 3. KLİNİK PSİXOLOJİ TƏDQİQATIN VƏ DİAQNOSTİKANIN ƏSASLARI
Fəsil 4. PSİXİ FƏALİYYƏTİN POZULMASININ PATOPSİXOLOJİ TƏDQİQİ
Fəsil 5. PSİXİ FƏALİYYƏTİN POZULMASININ NEYROPSİXOLOJİ TƏDQİQİ
Fəsil 6. SOMATİK TƏBABƏTİN TİBBİ-PSİXOLOJİ PROBLEMLƏRİ
Fəsil 7. TİBBİ PSİXOLOGİYANIN YAŞ PROBLEMLƏRİ
Fəsil 8. PSİXOTERAPİYANIN, PSİXOKORREKSİYANIN VƏ REABİLİTASİYANIN ƏSASLARI
Fəsil 9. PSİXOPROFİLAKTİKANIN VƏ KLİNİK PSİXOLOQUN ETİKASI HAQQINDA
Bölmə IV. Tədris-metodik və informasiya təminatı
Bölmə V. Qiymətləndirmə meyarları
Bölmə VI. Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahı

## ÜMUMİ QAYDALAR

**“**Klinik (Tibbi) psixologiya**”** fənni 61 – Psixologiya ixtisası, 6116.01 “Klinik (Tibbi) psixologiya” istiqaməti proqramı üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlığının əsas fənnidir. “Klinik (Tibbi) psixologiya” fənninin öyrənilməsi bakalavr və magistratura hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır.

“Klinik (Tibbi) psixologiya” fənninin əsas məqsədi bu elmin mövzusu, predmeti, strukturu və tətbiq sahələrinə, klinik psixologiyanın müxtəlif nəzəri və praktik sahələrinin anlayışlar apparatına dair məsələləri əhatə edir.

“Klinik (Tibbi) psixologiya” proqramı klinik psixologiyanın tarixi inkişaf yolu, elmin inkişafı boyunca müzakirə olunan nəzəri problemləri, klinik praktikada psixoloqun rastlaşacağı əsas xəstəliklər haqqında bilikləri göstərmək məqsədi daşıyır. O cümlədən, klinik psixoloqun əsas praktik silahı olan psixodiaqnostika, psixokorreksiya, bərpaedici təlim və psixoterapiya haqda məlumatları əhatə edir. İddiaçının gələcəkdə yazacağı dissertasiyası və elmi fəaliyyətində istifadəsi üçün klinik tədqiqatların təşkili, təhlili metodları haqqında biliklər də vacib olduğundan, onlar haqda da məlumatlar proqrama daxil edilmişdir.

“Klinik (Tibbi) psixologiya” fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

“Klinik (Tibbi) psixologiya” fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

“Klinik (Tibbi) psixologiya” fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

“Klinik (Tibbi) psixologiya” fənni fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

**“Klinik (Tibbi) psixologiya” ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi** klinik psixologiya sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin klinik fəaliyyətin psixoloji aspektlərini təhlil və tətbiq edə bilən, müasir elmi-metodik bilik və bacarıqlara yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun nəzəri biliklərinin və praktik bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir. Tiblə sıx əlaqədə formalaşan, ancaq ilk növbədə psixologiya elminin bir sahəsi olan klinik psixologiyanın əsas vəzifəsi şəxsiyyətin psixi və psixoloji sağlamlığının qorunması və bərpası məsələsidir. Nəzərdə tutulmuşdur ki, fənn şəxsiyyətin psixoloji sağlamlığının bioloji və sosial-psixoloji şərtləri haqqında fundamental nəzəri biliklərdən, müxtəlif profilli səhiyyə müəssisələrində fəaliyyət göstərəcək mütəxəssis kimi klinik psixoloqlarda pasiyentlər, onların yaxınları, eləcə də tibbi personala və ümumilikdə əhaliyə yanaşmada psixoloji yönəlişlikdən bəhs edir.

**Tədqiqatın məzmunu –** Müasir klinik psixologiya həm nəzəri biliklərlə, həm də klinik praktikanın geniş materialları ilə zəngin elm sahəsi kimi fəaliyyət göstərir. Psixiatriyada, nevrologiyada, neyrocərrahiyyədə, somatik xəstəliklər klinikasında aşkar olunan psixi fəaliyyətin və şəxsiyyətin patologiyasını, beyinin lokal zədəsi zamanı psixikanın beyin mexanizmlərinin dəyişməsini, daxili orqanların xəstəlikləri zamanı xəstəliyin daxili mənzərəsinin özünəməxsusluğunu, onların diaqnostikası, terapiyası, reabilitasiyası, korreksiyası sahəsində olan böyük nailiyyətləri və s. məsələləri öyrənən elm sahəsidir.

**Tədqiqatın obyekti -** Psixiatriyada, nevrologiyada, neyrocərrahiyyədə, somatik xəstəliklər klinikasında, uşaq psixo-nevroloji müəssisələrdə olan xəstələr, onların fərdi psixoloji xüsusiyyətləri, şəxsiyyət və davranış modellərinin patoloji dəyişməsi, xəstələrin psixoloji xüsusiyyətləri, klinik psixoloqların professional-psixoloji keyfiyyətləri, etik normalar çərçivəsində klink şəraitdə fəaliyyəti, habelə xəstələrlə fərdi və qrup terapiyası, psixokorreksiya və bərpaedici təlim aparmasıdır. Nəzərdə tutulmuşdur ki, fənn şəxsiyyətin psixoloji sağlamlığının bioloji və sosial-psixoloji şərtləri haqqında fundamental nəzəri biliklərdən, müxtəlif profilli səhiyyə müəssisələrində fəaliyyət göstərəcək mütəxəssis kimi klinik psixoloqlarda pasiyentlər, onların yaxınları, eləcə də tibbi personala və ümumilikdə əhaliyə yanaşmada psixoloji yönəlişlikdən bəhs edir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının – 6116.01 - “**Klinik (Tibbi) psixologiya**” istiqaməti üzrə

doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

- elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və imtahan prosesində 6116.01 – "**Klinik (Tibbi) psixologiya**" hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsil Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsilalanların doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi nəticəsində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu müəyyən etmək;

- Doktorantın klinik-psixoloji fəaliyyətinin psixologiyası, hüquqi şüurun strukturu və funksiyaları, cinayi davranışın və kriminal viktimologiyanın psixologiyası, istintaq və əməliyyat-axtarış fəaliyyəti, məhkəmə fəaliyyəti, eləcə də məhkumların islah və resosializasiyasının psixoloji əsasları haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək;

- Klinik psixologiyanın tarixi inkişafı haqqında;

-Klinik psixologiyanın əsas sahələri olan "Neyropsixologiya", "Psixi fəaliyyətin pozulması", "Somatik xəstəliklərin psixologiyası", "Psixoloji maarifləndirmə və psixoprofilaktika", "Klinik psixodiaqnostika, psixokorreksiya və psixoterapiya" kimi sahələrin mövzusu və vəzifələri haqqında;

-Tibbi-psixoloji ədəbiyyatda rast gəlinən psixi və psixoloji sağlamlıq, eləcə də "sərhəd hal", "xəstəlik" və "pozuntu" anlayışlarının mahiyyəti haqqında;

-Nevroloji, psixi, somatik xəstəliklər klinikasında klinik psixoloqun vəzifələri haqqında;

-Beyin və psixikanın inkişafında bioloji və sosial şərtlərin yeri haqqında;

-Əsas somatik və nevroloji xəstəliklər; psixi pozuntular haqqında;

-Psixi proseslərin beyin mexanizmləri və pozuntuları haqqında;

-Psixi və psixoloji inkişafın qanunauyğunluqları və pozuntuları haqqında;

-Qocalıq dövrünün psixoloji və fizioloji dəyişiklikləri və xəstəlikləri haqqında;

-Asılılıq yaradan maddələrin qəbulu zamanı yaranan psixoloji problemlər haqqında;

-Nevrotik pozuntular zamanı meydana gələn psixoloji dəyişikliklər haqqında;

-Şəxsiyyətin ahəngdar inkişafı və şəxsiyyət pozuntularının psixoloji əsasları haqqında bilikləri müəyyənləşdirməkdir.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan bacarıqların üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

- müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar:**

- klinik psixologiya sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti;

**Peşəkar bacarıqlar:**

- klinik psixologiyası sahəsində nəzəri və praktik tədqiqatların metodologiyasının mənimsənilməsi;

- elmi tədqiqatlarda klinik psixologiyanın nəzəri və praktik əsaslarından istifadə etmək qabiliyyəti;

- xəstələrdə psixi, nevroloji və somatik pozuntuların psixoloji təhlilini aparmaq, onların diaqnostikasını, psixokorreksiya və psixoterapiyasını aparmaq bacarığı.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- klinik psixologiya sahəsində elmi-tədqiqat fəaliyyətinin əsas metodları və prinsipləri;

- klinik psixologiyanın müxtəlif sahələri ilə bağlı mövcud özünəməxsus yanaşma tərzi, nəzəriyyələr, və eksperimental tədqiqat üsulları;

- klinik psixoloji tədqiqatların metodoloji xarakteristikaları;

- xəstələrlə diaqnostik, psixoterapevtik, korreksiya işinin planlaşdırılması və həyata keçirilməsi;

- klinik psixologiyanın inkişaf mərhələləri və nəzəri əsasları;

- xəstəliyin etiologiyasında endogen və ekzogen amillərin, fərdi psixoloji xüsusiyyətlərin rolu;

- müasir klinik psixologiyanın yanaşmaları, nəzəriyyələri, tədqiqat problemləri və onların metodoloji əsasları.

**bacarıqlar:**

- klinik psixologiya sahəsində nəzəriyyələri və metodları praktiki tədqiqatlarda tətbiq etmək;

-klinik psixoloqun nəzəri və praktik vəzifələrini digər (tibbi, hüquqi, sosial) xidmət sahələrindən ayırmaq;

-psixoloji xidmətin əsas etik prinsiplərini tətbiq etmək;

-klinik psixoloji tədqiqat və diaqnostika işinin ilkin planını qurmaq;

- xəstələrin yaş və çins xüsusiyyətlərinə, nozologiyasına, xəstəliyin ağırlıq dərəcəsinə və proqnozuna uyğun psixoloji təhlil etmək;

- psixi, nevroloji və somatik pozuntuların koqnitiv proseslərə, davranış və şəxsiyyətə təsir mexanizmlərini təhlil etmək;

- klinik psixologiya sahəsində müasir metodlardan və informasiya texnologiyalarından istifadə edərək tədqiqat aparmaq;

- diaqnostika, patopsixoloji ekspertiza nəticələrini məntiqi şəkildə yazılı(rəylə) və şifahi təqdim etmək;

- fənlərarası sahələrdə yaranan problemlərin həlli üçün perspektivli nəzəri-metodoloji yanaşmaları inkişaf etdirmək.

**vərdişlər:**

- klinik psixologiya sahəsində müstəqil nəzəri və empirik tədqiqat aparmaq;

- müasir elmi nailiyyətləri, o cümlədən patopsixologiya, neyropsixologiya və psixosomatika, uşaq klinik psixologiyası sahələrində tətbiq nəticələrini tənqidi qiymətləndirmək;

- xəstələrin psixoloji vəziyyətini təhlil etmək və proqnozlaşdırmaq;

- şifahi və yazılı nitqini məntiqi, əsaslandırılmış və aydın formada təqdim etmək;

- tədqiqat işinin müxtəlif metodlarını tətbiq etmək və nəticələri statistik üsullarla təhlil etmək;

- klinik psixologiya üzrə nəzəri bilikləri praktiki fəaliyyətə çevirmək;

- yerli və xarici alimlərin ən əhəmiyyətli konseptual işlərini qiymətləndirmək və müqayisəli təhlil aparmaq;

-psixodiaqnostika, psixoloji müayinə və psixoloji konsultasiya zamanı effektiv kommunikasiya üsullarından istifadə etmək;

-psixi proseslərin normal və pozulmuş (patoloji) səviyyələrini ayırd etmək;

-tətbiq edilmiş psixoloji testlərin nəticələrini keyfiyyətcə təhlil etməyi və protokollaşdırmaq;

-klinik sahədə tətbiq edilən diaqnostik və tədqiqat metodlarını məqsədi və təyinatına uyğun təsnifləndirmək;

-psixoloji konsultasiya, psixoterapiya, psixokorreksiya və psixososial reabilitasiya kimi xidmət formalarına ehtiyacı qiymətləndirmək.

Ümumilikdə, "Klinik (Tibbi) psixologiya" fənninin proqramı peşəkar fəaliyyətində bu sahədə strukturlaşdırılmış və sistemli yanaşmanı araşdırmağı nəzərdə tutur.

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

### Fəsil 1 . KLİNİK (TİBBİ) PSİXOLOGİYANIN YARANMA TARİXİ, MÖVZUSU VƏ VƏZİFƏLƏRİ

1."Klinik (tibbi) psixologiya" anlayışı. Klinik psixologiyanın psixologiya elminin bir sahəsi kimi yaranma və inkişaf tarixi. Klinik psixologiyanın inkişafına təsir edən amillər.

Klinik psixologiyanın strukturu və onun əsas sahələri: "Neyropsixologiya", "Psixi fəaliyyətin pozulması", "Somatik xəstəliklərin psixologiyası", "Psixosomatika", "Uşaq klinik psixologiyası", "Psixoprofilaktika", "Klinik psixoloqun davranışı və etikası", "Klinik psixodiaqnostika, psixokorreksiya və psixoterapiya" və s. klinik psixologiyanın struktur elementləri kimi. Psixologiyanın tiblə əlaqələrinin tipi və xarakteri.

2. Klinik (Tibbi) psixologiyanın mövzusu və vəzifələri. Psixologiyanın tibblə əlaqələrinin tipi və xarakteri. Nevroloji, psixi və somatik xəstəliklər klinikasında klinik psixoloqun praktik vəzifələri. Xəstəlik zamanı psixi dəyişikliyin və şəxsiyyətin pozulmasının psixodiaqnotikası klinik psixoloqun vəzifəsi kimi. Psixoterapiyada və bərpa işi (psixokorreksiya və psixososial reabilitasiya) təcrübəsində klinik psixoloqun rolu və vəzifələri.

Klinik psixoloqların cəmiyyət qarşısında vəzifələri. Klinik psixoloqların davamlı peşəkar bilik və bacarıqlarının artırılması. Göstərilən klinik-psixoloji xidmət proqramlarının effektivliyinin mütəmadi monitorinqi. İctimai icra qurumlarına psixoloji sağlamlığı və rifah halını dəstəkləyən təkliflər və tövsiyələrin təqdim edilməsi.

3. Klinik (Tibbi) psixologiyanın əsas nəzəri problemləri.

Sağlamlıq və xəstəliyin psixoloji aspektləri.

Psixologiyada və tibbdə «norma» anlayışı. Xəstənin psixologiyası. Ruhi, somatik, nevroloji və sərhəd hallarının profilaktikasının psixoloji aspektləri. Klinik psixoloqun peşə davranışı və etikası.

4.Xəstəliyin yaranmasının, gedişinin, müalicəsinin və profilaktikasının psixoloji amilləri.

Psixoloji amillərin aşkar edilməsi, analizi və sistemləşməsi. Psixi hadisələrin sistem-struktur analizi. Psixi proseslərin təşkilinin səviyyələri. Xəstəliyin genezisində şüur və şüuraltı səviyyələrin rolu. Psixoterapiya, psxokorreksiya və bərpa işinin psixoloji aspektləri. Ali psixi funksiyaların bərpasının nəzəri əsasları və bərpaedici təlimin prinsipləri.

Psixi fəaliyyətin beyində təşkilinin əsas prinsipləri. A.P.Luriyanın ali psixi funksiyaların sistem-dinamik lokallaşması prinsipi. Beyinin üç struktur-funksional blokları prinsipi. Psixi funksiya və funksional sistem. Baş beyin yarımkürələrinin birgə işi problemi. Beyində dominantlıq və yarımkürələrarası münasibət. Dominant və subdominant yarımkürələr. İnsan beyninin sol və sağ yarımkürələrinin funksiyaları.

5. Normada və patologiyada psixikanın inkişafı.

Psixikanın inkişafını müəyyənləşdirən amillər. Psixikanın inkişafı və pozulması problemi. İnkişafda «birinci» və «ikinci» dərəcəli qüsurlar. Ali psixi funksiyaların pozulmasında yaş amilinin rolu. Psixi inkişafdan qalmanın əsas növlərinin xarakteriztikası (oliqofreniya, psixopatiya və s.). psixikanın inkişafına təsir edən bioloji və sosial amillərin qarşılıqlı təsirinin öyrənilməsində tibbi psixologiyanın imkanları.

6. Psixologiyada şəxsiyyət anlayışı və onun tibbi psixologiya üçün mənasının xarakteristikası.

Psixologiyada şəxsiyyətin tədqiqinin əsas istiqamətləri. Psixoanaliz, eksiztensializm, humanizm və s. nəzəriyyələrin analizi. Şəxsiyyət və fəaliyyət. Şəxsiyyət insanın münasibətlər sistemi kimi. Xəstəliyin genezində, onunla mübarizədə, onun profilaktikası və müalicəsi zamanı şəxsiyyət amilinin rolu. Şəxsiyyətin patoloji dəyişməsi. Şəxsiyyətin motivasiya sferasının pozulması. «Xəstəliyin daxili mənzərəsi» problemi. Qüsurun kompensasiyası problemi və psixoloji müdafiə mexanizmlərinin funksiyaları.

Şəxsiyyətin tədqiqi metodları, onların əsas tipləri. Şəxsiyyətin tədqiqi metodlarının düzgünlüyü və etibarlılığı problemi.

## Fəsil 2. KLİNİK PSİXOLOGİYANIN NƏZƏRİ VƏ ETİK PROBLEMLƏRİ

“Sağlamlıq” və “xəstəlik”, “normallıq” və “anormallıq” klinik psixologiyanın nəzəri və praktik problemləri kimi. “Sərhəd hal” anlayışı. “Psixi sağlamlıq” və “psixoloji sağlamlıq” anlayışlarının mahiyyəti.

Psixikanın inkişafı, psixi və psixoloji sağlamlığını şərtləndirən bioloji və sosial amillər, onların qarşılıqlı təsiri. İnkişafda «birinci» və «ikinci» dərəcəli “qüsur” anlayışları. Psixi fəaliyyətin təşkilinin səviyyələri. Xəstəliyin mənşəyində şüur və qeyri-şüur səviyyələrinin rolu. Ailə, mühit və tərbiyənin psixi və psixoloji sağlamlığa, eləcə də psixoloji xəstəliklərin yaranması və müalicəsinə təsiri məsələləri. Premorbid xüsusiyyətlərin və şəxsiyyət xüsusiyyətlərinin xəstəliyin yaranmasına, profilaktikası və müalicəsinə təsiri.

Həkim-xəstə (pasiyent) münasibətlərində etik problemlərin tarixinə dair. Tibdə etik problemin həllinə dair tarixi yanaşmalar: Hippokrat modeli, Parasels modeli, deontoloji model və bioetika.

Psixoloqun fəaliyyətində əsas etik prinsiplər. Psixi sağlamlıq sahəsində əsas hüquqi

sənədlər. Klinik-psixoloji xidmətə etnomədəni xüsusiyyətlərin təsiri.

## Fəsil 3. KLİNİK PSİXOLOJİ TƏDQİQATIN VƏ DİAQNOSTİKANIN ƏSASLARI

1. Psixoloji tədqiqat anlayışı. Psixoloji tədqiqatların tarixinə dair. Tədqiqatların təşkilati formaları (dizaynları). Müşahidə (observasiya) və eksperimental (müdaxiləli) tədqiqatlar. Hadisənin (keys) öyrənilməsi metodu. Fərdi və qrupla müsahibə (intervyu). Uzunmüddətli (longityudal) klinik tədqiqatların təşkili məsələləri. Randomizasiya olunmuş tədqiqatlar. Tədqiqat nəticələrinin kəmiyyət (statistik) və keyfiyyət təhlili və təqdimatı. Tezis, məqalə və dissertasiyaların yazılma qaydaları.

2. Psixodiaqnostika haqqında ümumi məlumat. Psixodiaqnostik metodların təsnifatı və tətbiqi prinsipləri. Klinik-psixoloji müayinə məqsədilə psixodiaqnostikanın keçirilməsi. Klinik söhbət psixodiaqnostika və psixoloji müdaxilənin (xidmətin) ilkin mərhələsi kimi. Effektiv kommunikasiya yolları.

Klinik psixologiyada tətbiq olunan əsas psixometrik şkalalar. Proyektiv və obyektiv (standartlaşdırılmış) metodikalar. Psixoloji test psixodiaqnostik metodika kimi. Psixoloji testlərə verilən tələblər: validlik, mötəbərlilik, reprezentativlik.

Sensor (həssaslıq) göstəricilərin psixodiaqnostikası. Koqnitiv funksiyaları tədqiq edən metodlar. Mnestik funksiyaları tədqiq edən metodlar. Təfəkkür pozuntularını tədqiq edən metodlar. İntellektin ölçülməsi metodları. Şəxsiyyəti tədqiq edən psixodiaqnostik metodlar.

Psixodiaqnostikanın klinik şəraitdə təşkili və protokollaşdırılması qaydaları. Klinik psixoloji müayinə haqqında hesabatın hazırlanması

## Fəsil 4. PSİXİ FƏALİYYƏTİN POZULMASININ PATOPSİXOLOJİ TƏDQİQİ

Patopsixoloji eksperimentin aparılma prinsipləri. Idrak fəaliyyətinin pozulmasını tədqiq edən test metodları. Eksperimental göstəricilərin kəmiyyət və keyfiyyətcə analizi problemi. Öyrədici eksperiment prinsipi. Psixi fəaliyyətinin patopsixoloji tədqiqinin ümumi psixologiyada rolu.

Əsas simptomkomplekslər.

1.Qavramanın və diqqətin pozulması.

Xülya və qarabasmanın tibbi-psixoloji analizi. Diqqətliliyinin pozulması, sinir-psixi göstəricilərin müxtəlif formaları zamanı diqqətin sabitliyinin və ayrı istiqamətə keçməsinin pozulması. Qavrama və diqqətin motivasiya komponentinin pozulması.

1. Diqqətin pozulmasının tədqiqat metodları.
2. Hafizənin pozulması.

Müxtəlif əsəbi-psixi xəstəliklər zamanı hafizənin pozulması. Amneziya və onun növləri. Mnestik fəaliyyətdə beyinin müxtəlif strukturlarının rolu. Hafizə və şüur. Hafizə və intellekt. Hafizə və şəxsiyyət. Nevroloji və psixiatriya klinikalarında hafizənin pozulmasının tədqiqat metodları.

4.Təfəkkürün pozulması.

Təfəkkür və onun inkişaf qanunauyğunluqları. Müxtəlif növ əsəbi-psixi xəstəliklər zamanı təfəkkürün pozulması problemi. Şizofreniya xəstəliyi zamanı təfəkkürün pozulması

problemi. Təfəkkürün pozulmasının tədqiqat metodları və onların diferensial-diaqnostik əhəmiyyəti.
5.Emosiya və iradənin patopsixoloji əyilməsi.
Emosiya və stress, emosiyaların psixfizioloji mexanizmləri. Emosional reaksiyalar, halətlər, münasibətlər və onların pozulması. Endogen psixozlar və sərhəd hallar zamanı emosioanl pozuntular. Mərkəzi sinir sisteminin üzvi zədəsi zamanıaffektiv pozuntular. Şok reaksiyalar, kəskin affektlər, patoloji və fizioloji affektlər haqqında anlayış. Müxtəlif xəstəliklər zamanı emosional ekspressiya və impressiyanın xüsusiyyətləri. İradə və onun pozulması, nitq və hərəkətlərə təşəbbüsetmə meylinin dəyişməsi. Ajitasiyalı davranış. Yuxunun pozulması. Qida meylinin pozuntuları. Cinsi meylin pozuntuları. Emosional- iradi pozulmaların beyin mexanizmləri.
6.Şəxsiyyətin pozulması.
Şəxsiyyətin pozulmasının patopsixoloji analizinin prinsipləri. Müxtəlif xəstəliklər zamanı motivlərin ardıcıllığının və vasitəliliyinin pozulması. Məna əmələgəlmə prosesinin pozulması. Davranışa nəzarətin pozulması. Psixi xəstəliklər zamanı formalaşan patoloji tələbatların analizi. Şəxsiyyətin pozulmasının patopsixoloji metodlarla analizi.

## Fəsil 5. PSİXİ FƏALİYYƏTİN POZULMASININ NEYROPSİXOLOJİ TƏDQİQİ

1. Ümumpsixoloji problemlərin həllində neyropsixoloji və neyrofizioloji tədqiqatların tətbiqi. A.R.Luriyanın ali psixi funksiyaların sistemli təşkili təlimi. Beyinin üç əsas fuksional bloku. Beyin strukturlarının üfiqi və şaquli təşkili. Yarımkürələrarası asimmetriya və yarımkürələrarası qarşılıqlı təsir problemi. Beyinin lokal zədəsi zamanı neyrofizioloji və neyropsixoloji analiz. Ümumi, lokal-spesifik və qeyri-spesifik aktivlik.
2. Neyropsixoloji diaqnostikada sindrom analizi prinsipi. Beyinin alın payının zədəsi zamanı ali psixi funksiyaların pozulması. Alın sindromunun variantları. Beyinin ənsə - təpə payının zədəsi zamanı ali psixi funksiyaların pozulması. Beyinin gicgah payının zədəsi zamanı ali psixi funksiyaların pozulması. Beyinin sağ və sol yarımkürələrinin zədəsi zamanı ali psixi funksiyaların pozulması sindromu. Uşaq yaşlarında ali psixi funksiyaların pozulması sindromu.
3. İdrak və emosional proseslərin neyropsixoloji tədqiqi metodları.
4. Hərəkətlərin pozulması. Apraksiyanın növləri (dinamik, kinestetik, optik-məkan, məqsədli hərəkətlər apraksiyası). Apraksiya zamanı lokal zədə zonası.
5. Qavramanın pozulması. Görmə aqnoziyasının növləri. Eşitmə qavrayışının pozulması. Duyğu aqnoziyaları. Məkanı qavramanın pozulması. Bədənin sxemi və onun pozulması. Aqnoziyaaların mexanimzləri haqda təsəvvürlər. Aqnoziyalar zamanı beyin zədələrinin lokal (məhdud) zonaları haqqında.
6. Nitqin pozulması. Afaziyalar və onların növləri. Eskpressiv və impressiv nitqin pozulması və onların sindromları. Nitqin pozulma mexanizmlərində qnostik və somatik pozulmaların rolu. Afaziyaların tədqiqinə linqvistik yanaşma. Afaziyalar zamanı beyinin lokal zədə zonaları.
7. Aleksiya, aqrafiya, akalkuliya.
8. Mnestik proseslərin pozulması. Unutma mexanizmlərinin neyropsixoloji analizi. İxtiyari və qeyri-ixtiyari yadda saxlamanın pozulması. Qısamüddətli və uzunmüddətli yadasalmanın pozulması. Baş beyinin müxtəlif sahələrinin (alın, gicgah, təpə, ənsə paylarının səthinin və dərin strukturlarının), sol və sağ yarımkürələrinin zədəsi zamanı hafizənin pozulması sindromları. Mnestik pozulmaların neyropsixoloji mexanizmlərinin tədqiqi.

9. Təfəkkür proseslərinin pozulması. Baş beyinin sağ və sol yarımkürələrinin alın, gicgah, təpə, ənsə paylarının zədəsi zamanı təfəkkürün pozulması.
10. Beyinin lokal zədələri zamanı emosional, şəxsiyyət pozuntularının neyropsixoloji tədqiqi imkanları.
11. Pozulmuş funksiyaların bərpasının neyropsixoloji əsasları. Psixi proseslərin sistemli təşkili və funksional dəyişmələr vasitəsilə pozulmuş funksiyaların bərpası prinsipləri.

## Fəsil 6. SOMATİK TƏBABƏTİN TİBBİ-PSİXOLOJİ PROBLEMLƏRİ

1. Psixosomatik xəstəliklər. Psixoloji amillər somatik xəstəliyin səbəbi kimi. Bu amillərin perseptiv, təhrikedici rolu. Xəstəliyin daxili mənzərəsi problemi.
2. Ürək qan-damar sistemi xəstəlikləri zamanı xəstənin psixoloji xüsusiyyətləri.
Baş beyinin damar xəstəlikləri zamanı xəstənin psixoloji xüsusiyyətləri. İnfarkt miokardın, qan-damar xəstəliklərinin, hipertoniyanın müxtəlif mərhələlərinin psixoloji xüsusiyətləri.
3. Tənəffüs orqanlarının xəstəlikləri (vərəm, bronxial astma, xroniki qeyri-spesifik pnevmaniya və s.) zamanı xəstələrin tibbi-psixoloji xüsusiyyətləri.
4. Mədə-bağırsaq xəstəlikləri (mədə-bağırsaq xorası, spastik kolit, qara ciyər və öd kisəsinin xroniki xəstəlikləri) zamanı xəstənin tibbi-psixoloji xüsusiyyətləri.
5. İfrazat orqanlarının xəstəlikləri zamanı xəstənin tibbi-psixoloji xüsusiyyətləri. Qara ciyərində çatışmamazlıq olan xəstələrin psixoloji xüsusiyyətləri. Dializdə olan xəstələrin psixoloji problemləri. Böyrək daşı xəstəliyinin psixoloji aspektləri.
6. Cərrahiyyənin tibbi – psixoloji problemləri. Xəstənin cərrahi əməliyyata psixoloji hazırlığı, cərrahi əməliyyatdan sonrakı dövrün psixoloji aspektləri. Qara ciyər və böyrək implantasiyası edilən xəstələrin psixoloji problemləri.
7. Görmənin, eşitmənin, ətrafların, üzün anadangəlmə və qazanılmış qüsurları olan xəstələrin psixoloji xüsusiyyətləri. Uşaq serebral iflici.
8. Onkologiyanın psixoloji problemləri. Yatrogeniya. Anozoqnoziya. Bəd xassəli şişləri olan xəstələrin psixoloji xüsusiyyətləri.

Xəstəliyə münasibətin müxtəlif variantları (L.L.Roxli “Xəstəliyin dərki”). Ağrılar və pasiyentin ona reaksiyası. Xroniki ağrılar zamanı ağrı duyğusuna adaptasiya. Xəstəliyin daxili mənzərəsinin səviyyələri (R.A.Luriya): senzitiv, intellektual. Xəstəliyin daxili mənzərəsinin tərkibinə daxil olan “xəstəlik yaşantısı”, “uyğunlaşma reaskiyası” kimi ifadə edilən özünə, öz xəstə vəziyyətinə, ətrafdakılara münasibət (E.A.Şevalyov). Xəstəliyin daxili mənzərəsinin müalicə və sosial-peşəkar adaptasiyaya təsiri. Somatik, əsəbi- psixi pozuntuların yaranmasında şəxsiyyət amilinin rolu. Xarakterin aksentuasiyası və aksentuasiyalı şəxsiyyət. Şəxsiyyət tipləri və əsas psixosomatik pozuntular. Xroniki somatik xəstəliklərə şəxsiyyətin reaksiya tipləri. Kəskin sui-qəsd reaksiyaları zamanı şəxsiyyətin xüsusiyyətləri. Stress və frustrasiya anlayışları: xəstəliyin inkişafında onların rolu. Psixogeniya anlayışı. Psixogeniya pozuntusu travmatik vəziyyətlərin və ya uzun müddət davam edən emosional stressin təsiri altında yaranan geri dönən psixi pozuntu kimi (yüngül reaksiyalardan ağır psixozlara qədər).Şəxsiyyət və psixogeniyanın inkişafına onun münasibəti. Nevrozlar psixogen xəstəlik kimi. Nevrotik və psixopatik inkişaf zamanı uşaqların səhv tərbiyəsi tipləri. Psixogen psixozlar. Premorbid şəxsiyyət, psixozların formalaşmasında, gedişində referent sosial- psixoloji mühitin rolu. Xəstəliyin daxili

mənzərəsi.

Ailədaxili qarşılıqlı münasibətlər və ailə üzvlərinin xəstəni qavraması və anlaması məsələləri. Xəstəliyə və pasiyentə müvafiq psixoterapiya proqramının hazırlanması və tətbiqi məsələləri. Somatik xəstəlikdən əziyyət çəkən insanlarla iş zamanı tətbiq edilən psixodiaqnostik metodlar. Müxtəlif nozologiyalar zamanı həyəcanlılığın ölçülməsi və psixoterapiyası. Somatik təbabətdə psixoloji maariflənmənin əhəmiyyəti.

## Fəsil 7. TİBBİ PSİXOLOGİYANIN YAŞ PROBLEMLƏRİ

1. Uşaq və yeniyetmələrdə psixi pozuntuların formalaşmasında yaşın psixoloji və fizioloji xüsusiyyətlərinin rolu. Uşaq yaşlarında psixi pozulma simptomlarının xüsusiyyətləri. Somatik-vegetativ disfunksiyaların patogenetik rolu. Pis və səhv tərbiyə şəraitinin təsiri problemi. Uşaqlarda psixogen, endogen və somatik pozulmaların xüsusiyyətləri. Uşaq davranış pozuntularının psixi, nevroloji və somatik təzahürləri.
2. Uşaqlarda anomal psixi inkişaf. Dizontogenezin təsnifatı. Erkən yaş dövründə uşaqlarda psixomotor inkişafın pozulmaları (ümumi inkişafdan qalma, əqli geriqalma).Uşaq yaşlarında əsas fəaliyyət növlərinin pozulması (ünsiyyət, oyunlar, təlim).
3. Yeniyetməlik dövrünün psixoloji xüsusiyyətləri. Yeniyetmələrdə böhranın formalaşmasında fizioloji amillərin və tərbiyə xüsusiyyətlərinin rolu. Yeniyetmələrdə psixogen və endogen pozulmaların əsas simptomları. Yeniyetməlik dövründə nevrozların əmələ gəlməsində tərbiyə istiqamətinin tipi əsas amil kimi. Yeniyetməlik dövründə psixi inkişafın pozulmasının əsas növləri. Fiziki inkişafda akselerasiya və retardasiya ilə bağlı psixi pozulmalar.
4. İnvolyusiya dövrünün tibbi- psixoloji xüsusiyyətləri. Klimaksın psixoloji xüsusiyyətləri. Ahıl yaş dövrünün və qocalığın psixologiyası. Altheymer xəstəliyi.

## Fəsil 8. PSİXOTERAPİYANIN, PSİXOKORREKSİYANIN VƏ REABİLİTASİYANIN ƏSASLARI

1.Psixoterapiya, psixokorreksiya və psixososial reabilitasiya klinik-psixoloji xidmətin növləri kimi. Psixoloji təsir, məsləhət (konsultasiya) və psixoterapiya anlayışlarının müqayisəli təhlili. Psixoterapiyanın tarixi və müasir yanaşmalar. Psixoterapiyanin predmeti və vəzifələri. Psixoterapiyanin nəzəri və praktik aspektləri. Direktiv və qeyri-direktiv psixoterapiya üslubları. Psixoterapiyanın təşkili qaydaları və formaları. Psixoterapiyanın psixoloji əsasları. Təlqin, inandırma. Rasional, qeştalt, koqnitiv-davranış və s. psixoterapevtik metodların psixoloji təsir mexanizmləri. “Psixoterapevtik birliklər”, “davranış psixoterapiyası” konsepsiyaları. Fərdi və qrup psixoterapiyasının psixoloji əsasları. Qrup psixoterapiyasının verbal və qeyri- verbal metodları. Reaktiv hallar zamanı psixoterapiya. Endogen psixozlar zamanı psixoterapiya. Nevrozlar zamanı qrup psixoterapiyası. Alkoqolizm zamanı qrup psixoterapiyası. Ailə psixoterapiyasının psixoloji əsasları. Nevrozlar, psixopatiyalar və endogen psixozlar zamanı ailə psixoterapiyası. “Ailə diaqnozu” və ailədə ahəngsiz (disharmonik) münasibətlərin əsas tipləri. Yeniyetmələrdə psixopatiyalar, psixopatabənzər pozuntular zamanı ailə psixoterapiyası.

2.Psixoloji korreksiya və onun psixoterapiyadan fərqi. Endogen psixoz xəstəsi olan ailələrlə psixoloji iş. Alkoqolizm xəstəliyi olanların ailələri ilə psixoloji iş. Psixoloji məsləhət praktikasında psixokorreksiya.İnkişafdan qalmış, zədələnmiş və ya pozulmuş funksiyaların

psixokorreksiyası bərpaedici təlimin əsas metodu kimi. Nevroloji və psixi pozuntular zamanı tətbiq edilən əsas psixokorreksiya metodları.

3.Psixososial reabilitasiyanın psixoloji əsasları. Biopsixososial modelin nəzəri əsasları. Psixososial reabilitasiyanın tarixinə dair. Psixi sağlamlıq xidmətlərinin deinstitutlaşması hərəkatları. İcmalarda və evlərdə klinik-psixoloji xidmətin göstərilməsi məsələləri. Klinik praktikada multidisiplinar yanaşmanın üstünlüyü. Müxtəlif profilli mütəxəssislərin (həkim, psixoloq, sosial işçi, hüquqşünas, pedaqoq) komanda işinin təşkili. Psixososial reabilitasiyada keys menecment yanaşması. Nevroloji və psixi pozuntusu olan pasiyentlərlə reabilitasiya işinin əsas prinsipləri və mərhələləri. Məşğuliyyət müalicəsi, əmək terapiyası, mühitlə müalicə, musiqi və incəsənətlə (artterapiya) müalicə və s. reabilitasiya metodlarının psixoloji əsasları. Reabilitasiya məqsədilə təsirin differensial proqramının seçilməsində istifadə olunan tibbi-psixoloji metodlar və onların effektivliyinin qiymətləndirilməsi. Reabilitasiyanın psixoloji əsasları. Reabilitasiya anlayışı. Əsəbi-psixi xəstəliyi olan xəstələrlə reabilitasiya işinin əsas prinsipləri və mənbələri. Məşğulluqla müalicə, əmək terapiyası, mühitlə müalicə, musiqi və incəsənətlə (artterapiya) müalicə və s. müxtəlif reabilitasiya metodlarının psixoloji əsasları. Psixoldoji və sosial reabilitasiya işi. Reabilitasiya məqsədilə təsirin differensial proqramının seçilməsində istifadə olunan tibbi-psixoloji metodlar və onların effektivliyinin qiymətləndirilməsi.

4. Bərpaedici təlimin psixoloji problemləri. Psixi qüsurun birinci və ikinci dərəcəli simptomları. Kompensasiya və adaptasiya məsələləri. «Yaxın inkişaf zonası» anlayışı. Məktəb ekspertizasının psixoloji metodları və xüsusitəlimin psixoloji problemləri (tiflopedaqogtka, surdopedaqogika və oliqofrenopedaqogika). Psix iinfantilizm və akselerasiya problemləri.

## Fəsil 9. PSİXOPROFİLAKTİKANIN ƏSASLARI VƏ KLİNİK PSİXOLOQUN ETİKASI HAQQINDA

1. Psixogigiyena və psixoprofilaktikanın psixoloji problemləri. Psixogigiyena və psixoprofilaktika-nın psixoloji məsələləri. I, II, III dərəcəli psixopofilaktika. Əməyin və təlimin psixogigiyenası, psixoprofilaktikası. Ailə və məişətin psixogigiyenası psixoprofilaktikası. Psixogigiyena və psixoprofilaktikada tibbi psixologiyanın rolu.

Əhaliyə sağlam həyat tərzi qaydaları haqqında məlumatların çatdırılmasında klinik psixoloqların rolu. Psixoloji problemlər və psixi pozuntular haqqında ayrı-ayrı şəxslərin və əhalinin məlumatlandırılması. Ayrıseçkilik və damğalamaya qarşı davamlı mübarizə psixoloji maarifləndirmənin vacib məsələsi kimi. Pasiyentlərə diaqnoz və müalicə haqqında psixoloji təlimin (məlumatlandırmanın) həyata keçirilmə üsulları.

Psixi pozuntu və asılılıq problemləri olan insanların ailələri ilə psixoloji maarifləndirmə və psixoprofilaktik iş. Erkən müdaxilənin əhəmiyyətinə dair psixoloji maarifləndirmə. Sübuta əsaslanmış tibbi və psixoloji xidmətlər haqqında əhalinin maarifləndirilməsi.

Əhalinin psixoloji sağlamlığının mütəmadi diaqnostikası psixoprofilaktikanın ayrılmaz hissəsi kimi. Ayrı-ayrı şəxslər və əhalinin fiziki, psixi və psixoloji sağlamlığının qorunmasında profilaktik tədbirlər. Həyat keyfiyyətləri və funksionallıq imkanlarının artırılması, xəstəlik və ölümün önlənməsi məqsədli psixoprofilaktik tədbirlər. Yaş qruplarına müvafiq yönəlmiş psixoprofilaktika tədbirləri. İstismar və zorakılığa məruz qalma və

infeksion xəstəliklərə tutulma riski olan qruplara yönəlmiş profilaktik tədbirlər.

Ailələrın optimal tərbiyə metodları haqqında məlumatlandırması. Ailə və məişətin psixoprofilaktikası. Məktəbdə psixoloji ekspertizanın metodları və xüsusi təlimin psixoloji problemləri (tiflopedaqogika, surdopedaqogika və oliqofrenopedaqogika). Təhsil sahəsində inklyuziyanın nailiyyətlərinin işıqlandırılması və psixoloji inkişaf problemləri olan uşaqların ailələri ilə multidisiplinar işin təşkili. Əməyin və təlimin psixoprofilaktikası.

2. Tibbdə etik normalar. Klinik psixoloqun davranışı və etikası. Deontologiya. Müalicə prosesində tibb işçisinin taktikası. Yatrogeniyalar və onların profilaktikası. Həkim və xəstə. Tibb bacısı və xəstə etikası. Tibb işçisinin mənəvi siması.

## IV BÖLMƏ. TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

## ƏDƏBİYYAT


Azərbaycan dilində:

1. İsmayılov N.V., İsmayılov F.N. Tibbi psixologiya və psixoterapiya. B.2008, 416 s.
2. İsmayılov F.N., Sultanova A. Klinik psixoloji müayinə metodları. B.,2016
3. Psixoloji məsləhətin əsasları. R. Koçyunas. B.H.Əliyevin redaktorluğu ilə. “Maarif” nəşriyyatı,2010
4. Gəraybəyli G.S., Soltanov M.Z. Qəmərlinski R.C. İnterpersonal psixoterapiya. Oskar, 2010, 224 s.
5. Psixoloji yardım haqqında Azərbaycan Respublikasinin Qanunu. 30 oktyabr 2018.
6. Şəfiyeva E.İ. Klinik psixologiya. Bakı: 2002, 80 s.
7. Şəfiyeva E.İ. Klinik-psixoloji diaqnostika metodları. B.2013, 143 s.
8. Şəfiyeva E.İ. Somatik xəstəliklərin klinikasının psixoloji problemləri. B.2013,195 s.
9. Şəfiyeva E.İ. Anomal inkişafın psixologiyası. B.2012, 400 s

Xarici dildə:

1. Балашова Е.Ю. Ковязина М.С. Нейропсихологическая диагностика. Классические стимульные материалы, М., Генезис 2014, 18 листов с цветными и 52 листа с ч/б изображениями.
2. Венгер А.Л.Клиническая психология развития:учебник и практики для бак. и маг.:М.Юрайт, 2018, 312 с.
3. Дмитриева Н. Ю. Детская психосоматика. Почему болеют наши дети? Изд. 2-е – Ростов н/Д: Феникс, 2016 152 с
4. Зейгарник Б.В. Патопсихология., М., 2000, 287 с.
5. Карвасарский Б.Д.Клиническая психология. С-Петер, 2015, 859 стр.
6. Лебединский В.В. Нарушения психического развития в детском возрасте. 2003, 144 с.
7. Лурия А.Р. Высшие корковые функции человека и их нарушения при локальных поражениях головного мозга. М. 2000 , 504 с.
8. Малкина-Пых И. Г.. Психосоматика.Справочник практического психолога. Москва эксмо 2005, 992 с.
9. Мартынова М.А. Клиническая психология детей и подростков. 2021,100 с.

10.Менделевич В. Д. Медицинская психология: учебник, Изд.: РОСТОВ-НА-ДОНУ:ФЕНИКС, 2016, 460 с.
11.Международная классификация болезней (10-й и 11- й пересмотр). Классификация психических и поведенческих расстройств. Клинические описания и указания по диагностике / Под ред. Ю. Л. Нуллера, С. Ю. Циркина. - СПб.: Адис, 1994. - 303 с
12.Микадзе Ю.В. Нейропсихология детского возраста: учебное пособие. СПб.: Питер, 2008, 288 с.
13.Николаева В.В. Влияние хронической болезни на психику. МГУ, 1987.
14.Семенович А. В. Нейропсихологическая коррекция в детском возрасте. Метод замещения онтогенеза: учеб. – М.: Бытие, 2018. – 474 с.
15.СПРАВОЧНИК ПО КЛИНИЧЕСКОЙ ПСИХОЛОГИИ Том 2 Дети и подростки Под редакцией МИШЕЛЯ ХЕРСЕНА АЛАН М. ГРОСС. Джон Уайли и сыновья, Inc. 2007
16.Хомская Е. Д. Нейропсихология. М. МГУ. 2022, 496с.
17.Цветкова Л. С. Введение в нейропсихологию и восстановительное обучение. М.2005, 184 с.
18.Psychiatric ethics. Second edition. Edited by Sidney Bloch and Paul Chodoff. Oxford University Press.Етика психіатрії. /пер. з англ. – К.: Сфера, 1998, 391 с.
19.Европейская конференция ВОЗ на уровне министров по охране психического здоровья. Проблемы и пути их решения.Хельсинки, Финляндия, 12–15 января 2005.
20.HANDBOOK OF CLINICAL PSYCHOLOGY Volume 2 Children and Adolescents Edited by MICHEL HERSEN ALAN M. GROSS. John Wiley & Sons, Inc. 2007
21.Meta code of ethics. EFPA (European Federation of Psychologists Associations) Accepted by General Assembly Athens, July 1995 Revised by General Assembly Granada, July 2005, 6 p.
22.American Educational Research Association, American Psychological Association, & National Council on Measurement in Education. (1999) Standards for educational and psychological testing. Washington, American Educational Research Association, 637 p.
23.Barlow, D. H., & Durand, V. M. Abnormal psychology. An integrative approach (2nd ed.). Pacific Grove, CA:Brooks/Cole. 1999, 759 p
24.The Oxford Handbook of clinical psychology/edited by David H. Barlow. Oxford University Press 2011, 945 p.
25.Ethics in Clinical Psychology. Six “what-if” scenarios for the undergraduate Abnormal Psychology course. Richard Alexander Muskegon Community College. 2015, 28 p.
İnternet resurslar:
1. http://www.koob.ru/homskaja/
2. http://psychological.ru/default.aspx?0a1=233&0o1=0&0s1=1&p=12&s=0#doc_1.html 2
3. http://www.mentalhealth.com/
4. http://www .medicalnewstoday.com/sections/psychology-psychiatry/
5. http://www.medline.ru/medline/
6. http://www.ncbi.nlm.nih.gov/pubmed
7. http://surgery-manual.narod.ru/ethics.htm «Хирургическая этика и деонтология»
8. http://www.saminfo.ru «Некоторые проблемы медицинской биоэтики» Тельнова К.И.

9. https://www.apa.org/ethics/code\
10. https://www.themedicportal.com/application-guide/medical-school-interview/medical-ethics/#:~:text=Medical%20Ethics%20Concept%3A%20Deontology&text=This%20ideology%20states%20that%20the,consequence%20of%20following%20them%20was.
11. https://www.psicoterapiarelacional.es/Portals/0/Documentacion/AAvila/Avila_1993_Deontology%20and%20Psychology_ERAP.pdf?ver=2012-02-26-201952-270
12. https://www.koob.ru/medical_psychology/
13. https://www.koob.ru/pathopsychology/

## V BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

### Metodik göstərişlər

**Doktorantların 61 -** “Psixologiya” hazırlıq istiqaməti, 6116.01 “Klinik(tibbi) psixologiya” ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı yazılı formada aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı klinik psixologiya moduluna aid mühazirələr və praktik məşğələlər dövründə, həmçinin auditoriyadan kənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları** İmtahan zamanı doktorant proqramda nəzərdə tutulmuş suallara ətraflı cavab verməlidir. Komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant aşağıdakı bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- klinik psixologiyanın nəzəriyyələri və eksperimental tədqiqat üsullarına aid biliklər;psixi, nevroloji və somatik pozuntu simptomları, nozologiyalar, koqnitiv proseslərin, şəxsiyyət və davranışın pozulmaları, psixoterapiya, korreksiyaedici metodlar haqda nəzəri, praktik bilik, bacarıqları yoxlanılır.
- klinik-psixoloji praktikada aparılan tədqiqatlarda istifadə olunan metodların və müasir texnologiyaların tətbiqi; xəstənin davranış və şəxsiyyət pozulmalarını diaqnostika etmə bacarığı; eksperimental və müşahidə tədqiqatları zamanı əldə olunan nəticələri təhlil edib nəzəriyyələrə söykənərək izah etmək; klinik psixologiya sahəsində mövcud problemlərə dair əsaslandırılmış şəxsi fikri ifadə etmək; elmi-tədqiqat fəaliyyətinə aid məlumatların toplanması, təhlili, analizi və təsnifatını həyata keçirmək;
- sahədə yaranmış mövcud elmi-metodoloji yanaşmaları təhlil etmək; klinik psixologiyanın tədqiqat metodlarının bu və ya digər məsələləri barədə şəxsi mövqeyini əsaslandırmaq;
- cavabın tamlığı doktorantın proqram üzrə nəzərdə tutulmuş təhsil nəticələrinə nə dərəcədə uyğunluğunu əks etdirir.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün **50 ballıq sistem əsasında “əla” (45-50 bal), “yaxşı” (35-44 bal), “kafi” (25-34 bal), və ya “qeyri-kafi” (0-24 bal)** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| Ballar | Qiymәndirmәnin meyarları |
|---|---|
| 1 | 2 |
| "әla" (45-50 bal) | Doktorant anlayışlar aparatını dәrindәn mәnimsәdiyini nümayiş etdirәrәk sualın mәzmununu tam açıqlayır. Doktorant elmi ixtisas üzrә yerli vә xarici doktrinalar, hüquq psixologiyası elminin tarixi, aktual nәzәri problemlәri, bu sahә üzrә ixtisasın müvafiq nomenklaturunun şifrinә daxil olan yanaşı elmi fәnlәr üzrә әsas elmi mәktәblәr vә elmi әsәrlәr haqqında dәrin biliklәrә malik olduğunu, hәmçinin dissertasiyanın mövzusuna vә ona yaxın mövzulara aid әdәbiyyatla hәrtәrәfli tanış olduğunu göstәrir. Doktorant ixtisasın konseptual problemlәri üzrә müxtәlif doktrinal mövqelәri qiymәtlәndirmәyi, hәmçinin fәnlәrarası xarakterli mübahisәli problemlәr haqqında öz fikirlәrini әsaslandırmağı bacarır. Doktorant bu sahәdә müasir nәzәri vә praktik problemlәri tәnqidi mövqedәn qiymәtlәndirә bilir. |
| "yaxşı" (35-44 bal) | Doktorant zәruri anlayışlar aparatını mәnimsәdiyini nümayiş etdirәrәk sualın mәzmununu açıqlayır. Doktorant elmi ixtisas üzrә yerli vә xarici doktrinalar, hüquq psixologiyası elminin tarixi, aktual nәzәri problemlәr, bu sahә üzrә ixtisasın müvafiq nomenklaturunun şifrinә daxil olan yanaşı elmi fәnlәr üzrә әsas elmi mәktәblәr vә elmi әsәrlәr haqqında ümumi biliklәrә malik olduğunu, hәmçinin dissertasiyanın mövzusuna vә ona yaxın mövzulara aid әdәbiyyatla kifayәt qәdәr tanış olduğunu göstәrir. Doktorant ixtisasın konseptual problemlәri üzrә müxtәlif doktrinal mövqelәri qiymәtlәndirmәyi, hәmçinin fәnlәrarası xarakterli mübahisәli problemlәr haqqında öz fikirlәrini әsaslandırmağı bacarır. Doktorant bu sahәdә müasir nәzәri vә praktik problemlәri qiymәtlәndirә bilir. |
| "kafi" (25-34 bal) | Doktorant zәruri anlayışlar aparatını qismәn mәnimsәdiyini nümayiş etdirәrәk sualın mәzmununu әsasәn açıqlayır. Doktorant elmi ixtisas üzrә yerli vә xarici doktrinalar, hüquq psixologiyası elminin tarixi, aktual nәzәri problemlәri, bu sahә üzrә ixtisasın müvafiq nomenklaturunun şifrinә daxil olan yanaşı elmi fәnlәr üzrә ayrı-ayrı elmi mәktәblәr vә elmi әsәrlәr haqqında ümumi biliklәrә malik olduğunu, hәmçinin dissertasiyanın mövzusuna vә ona yaxın mövzulara aid әdәbiyyatla yarımçıq tanış olduğunu göstәrir. Doktorant ixtisasın konseptual problemlәri üzrә müxtәlif doktrinal mövqelәri lazımınca qiymәtlәndirmәyi, hәmçinin fәnlәrarası xarakterli mübahisәli problemlәr haqqında öz fikirlәrini әsaslandırmağı bacarmır. Doktorant bu sahәdә müasir nәzәri vә praktik problemlәri qiymәtlәndirmәkdә çәtinlik çәkir. |
| "qeyri-kafi" (0-24 bal) | Doktorant sualın mәzmununu kifayәt qәdәr açıqlamır vә anlayışlar aparatını mәnimsәdiyini nümayiş etdirә bilmir. Doktorant elmi ixtisas üzrә yerli vә xarici doktrinalar, hüquq psixologiyası elminin tarixi, aktual nәzәri problemlәri, bu sahә üzrә ixtisasın müvafiq nomenklaturunun şifrinә daxil olan yanaşı elmi fәnlәr üzrә ayrı-ayrı elmi mәktәblәr vә elmi әsәrlәr |

| | |
|---|---|
| | haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri qiymətləndirə bilmir. |